# DÜNYA

№ 5

XÜSUSİ BURAXILIŞ



XƏZƏR Universiteti

DÜNYA Məktəbi



**Təhsil millətin gələcəyidir...**

**Heydər Əliyev**





Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən ilk Avropa Oyunlarını tarixi hadisə adlandırırlar. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki müsahibəsində vurğulayıb ki, **"Bakı-2015"** ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiridir və 6 min atletin 20 idman növündə mübarizəyə qatılması böyük göstəricidir.

İyunun 12-də Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı **Birinci Avropa Oyunlarının** açılışının şahidi oldular. **İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva** Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı, Olimpiya ailəsinin üzvlərini salamladı və çıxışında Azərbaycanın zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olduğunu, multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəyliyin Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsinə çevrildiyini bildirərək Azərbaycan xalqına müraciət etdi: ***"Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada - gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır."***

Azərbaycan Respublikasının **Prezidenti İlham Əliyev** birinci Avropa Oyunlarını açıq elan etdikdən sonra birinci Avropa Oyunlarının məşəli alovlandı.





Avropa Olimpiya Komitəsinin **prezidenti Patrik Hikki** çıxışında qeyd etdi: *"Siz bir dövlət kimi qürur doğuran yoldasınız. Bu yolda Sizinlə addımlamaqdan şərəf duyduq. Beynəlxalq ictimaiyyətin üzvü, cəmiyyət və Avropanın yeni idman paytaxtı kimi məqsədlərinizin həyata keçməsində iştirak etməkdən fərəh hissi duyduq."*






Dünya məktəbinin İctimaiyyətlə Əlaqələr və Media şöbəsinin əməkdaşı **Nərgiz Mahmudzadə**, eyni zamanda, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının I-ci vitse-prezidenti və Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AIPS) üzvüdür.

***Nərgiz Mahmudzadənin Azərbaycanda keçirilən İlk Avropa Oyunları, yarışların perspektivləri haqqında reportajı***
















Baku 2015
1st EUROPEAN GAMES

Birinci Avropa Oyunlarında 20 idman növü üzrə yarışlar keçirildi. Bunlardan dördü qeyri-olimpiya növü – 3x3 basketbol, çimərlik futbolu, karate və sambodur. Digərləri isə olimpiya növü olan atletika, gimnastika, kamandan oxatma, badminton, voleybol, boks, avarçəkmə, velosiped, qılıncoynatma, cudo, güləş, taekvondo, üzgüçülük, tennis, triatlon və atıcılıqdır.

Birinci Avropa Oyunları ərəfəsində xarici və yerli idmançı və jurnalistlər Atletlər Kəndi və Media Kəndində yerləşdirildilər. Əvvəlki qış və yay olimpiya oyunlarında heç vaxt Media Kəndi olmayıb, jurnalistlər ayrı-ayrı yerlerdə qalaraq yarışları işıqlandırıblar və ilk dəfə olaraq Azərbaycanda Birinci Olimpiya Oyunlarında jurnalistər üçün gözəl yaşayış və iş yerləri olan Media Kəndi yaradıldı. Atletlər Kəndindən və Media kəndindən bütün yarış zonalarına xüsusi ekspress avtobuslarla ardıçıl gediş-gəlişin təşkil olunması, xarici və yerli jurnalistlərə olan xüsusi diqqət və qayğı onları Bakı 2015 Birinci Avropa Oyunlarını daha rahat şəraitdə dünyaya yayımlamağa zəmin yaratdı. Oyunların Xəbərlər Xidməti **baku2015.com** internet səhifəsi vasitəsilə atletlərin mübarizəsi, yarışların vaxtı, yarış zonaları və digər zəruri məlumatları operativ yayımladı.

Birinci Avropa Oyunları ilə əlaqədar ölkəmizdə yaradılan idman infrastrukturu 2024-cü ildə yay olimpiya oyunlarına ölkənin namizədliyinin irəli sürülməsi üçün tramplin ola bilər. Təsadüfi deyil ki, Azərbaycan 2017-ci ildə 4-cü İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi edəcəkdir.





***... jurnalistlərə olan xüsusi diqqət və qayğı onları Bakı 2015 Birinci Avropa Oyunlarını daha rahat şəraitdə dünyaya yayımlamağa zəmin yaratdı.***







# Bu nömrədə...




Jurnalın üz qabığında XI sinif şagirdi Səfər Əsgərli və
I sinif şagirdi Xədicə Əliyeva

DÜNYA
JURNAL


| | |
|---|---|
| İLK AVROPA OYUNLARI | 3-6 |
| VƏTƏN VAR | 8-11 |
| Məktəb haqqında alim sözü | 12-13 |
| 3 RD ANNUAL CONFERENCE | 14-15 |
| Trip to Nottingham, England | 16 |
| Kimya fənni ayı | 17 |
| Ekskursiyalar | 18-19 |
| Monitorinq və qiymətləndirmə şöbəsi | 20-21 |
| Məktəb və valideyn | 22-23 |
| Təqvim | 24-25 |
| Our alphabet holiday | 26 |
| Hər birimiz bir çiçək | 27-29 |
| «Мы маленькие лучики...» | 30-31 |
| SON ZƏNG | 32-33 |
| Ensiklopediyadan | 35 |
| MƏZUN GECƏSİ | 36-37 |
| Ekskursiyalar | 38 |
| Summer school in DUNYA | 39-41 |
| Məktəbəqədər hazırlıq | 42-44 |



Təsisçi:

**Xəzər Universiteti**
**Dünya Məktəbi**

Baş redaktor:
**Nailə İsayeva**

Baş redaktor müavini:
**Afaq Qəmbərova**

Dizayner:
**İradə Cabarova**

Rəssam:
**Mir Rafiq Əbdülrəhimov**

Fotoqraf:
**Pınar Ələkbərzadə**
**Vüsalə Məmmədova**

**2015-ci ilin yanvarından çıxır**

DÜNYA
JURNAL

Xüsusi buraxılış
№ 5

Redaksiya heyəti:

**Mərufə Mədətli**
**Aydın Qənbərov**
**Xumar Vahabova**
**Sofiya Əmirova**
**Rüstəm Həsənov**

**Ünvan:**
Bakı, Əcəmi Naxçıvani 9
Tel.: (012) 563 59 40/47/48
Mob.: (070) 844 08 88
E-mail: info@dunyaschool.az
http://dunyaschool.az
Tiraj:1000



*Bəxtiyar Vahabzadə:*

***Yüz-yüz itən olsun,***
***Min-bir də bitən var.***
***Şükr eyləyəlim ki,***
***Bizlərdən həm əvvəl,***
***Həm sonra* VƏTƏN VAR...**







## DÜNYA MƏKTƏBİ - VƏTƏN EŞQİ MƏKTƏBİDİR...

*Şagirdlərin iştirakı ilə gözəl QARABAĞIN dilbər guşəsi olan ŞUŞAYA – düşmənlərin qəsb etdiyi XARI BÜLBÜLÜN yurduna həsr olunmuş tamaşa qəlbləri riqqətə gətirdi, insanları mütəəssir etdi...*



***DÜNYA Məktəbinin kampusu tam yenidir. Bu da konsert salonunun ilk tamaşasıdır. Mən də ilk dəfə gəlib burada əyləşdim. Çox gözəldir, hər şey gözəldir. Ən gözəl də olan uşaqların böyük hiss və həyəcanla, səmimiliklə, içdən gələn vətənpərvərliklə nümayış etdirdikləri səhnə oyunları və tamaşa idi.***

***DÜNYA Məktəbinin şagirdləri bizim öz uşaqlarımızdır. Onları bütün cəhətləri ilə sevirik. Öz uşaqlarımız olduqları üçün də onlara kifayət qədər tələbkar olacağıq ki, gələcəyə hazırlansınlar. Məktəbin fəlsəfəsi də budur və bu günkü tamaşa həmin fəlsəfənin musiqili nümayişi idi.***

***Professor Hamlet İsaxanlı***



*XƏZƏR Universitetinin DÜNYA məktəbində Şuşanın işğal gününü şagirdlərlə bərabər andıq, onların hazırladıqları ağrılı-acılı kompozisiyaya baxdıq. Şagirdlərin istedadı, yüksək yurd sevgisi ürəyimizi qürurla doldurdu. Rus-erməni işğalının sonu gələcək, düşmənlərin cavabını verəcəyik. İşğalın sonuna gedən yol məktəblərdən, uşaqlarımızın vətənpərvərlik ruhunda tərbiyəsindən başlanır. Bu baxımdan DÜNYA məktəbi gözəl nümunədir.*

**Sabir Rüstəmxanlı**
Xalq şairi

*Bir cəngi çalınsın,*
*Yatmış duyğularım oyansın!*
*Səsim qərib düşmüş*
*Torpağıma calansın!*
*Bir cəngi çalınsın,*

*Yaralanmış, paralanmış*
*Arzularım alov saçsın,*
*Təzə-təzə gün açsın,*
*Ay açsın!*
*Bir cəngi çalınsın!*



# VƏTƏN VAR...





*Xezer Universitesinin Dünya mektebinin "VETEN VAR" Proqramına katılmanın mutluluğunu yaşadım.*

*Öyrencilerin çok güzel gösterilerini izledim. Çok iyi planlanmış ve çok iyi zamanlanmış bu proqramı hazırlayan ve emeyi geçenleri tebrik ediyorum.*

*DÜNYA Mektebi gibi bu egitim yuvasına sahip olmasından dolayı Universitemizi ve Rehtör Cenap Hamlet beyi çalışmalarından ve emeklerinden dolayı tebrik ediyorum.*

*Teşekkür ediyorum.*

***Yaşasın Azerbaycan, Yaşasın Türkiye!***

**Abdulqafur Büyükfırat**
*Türkiye Büyükelçiliyi Tahsil Müşaviri*




AKADEMİK

# VAQİF ABBASOV

AZƏRBAYCANIN GÖRKƏMLİ ELM XADİMİ, KİMYA ELMLƏRİ DOKTORU, AMEA-NIN HƏQİQİ ÜZVÜ, YUSİF MƏMMƏDƏLİYEV ADINA NEFT-KİMYA PROSESLƏRİ İNSTİTUTUNUN DİREKTORU AKADEMİK **VAQİF ABBASOV** DÜNYA MƏKTƏBİNİN QONAĞI OLDU. ONUN DÜNYA DƏRGİSİNƏ MÜSAHİBƏSİNİ TƏQDİM EDİRİK.

**Dünya** məktəbində həmçinin şagirdlərin istedadlarının üzə çıxarılması üçün axtarışların aparılması, onların inkişafına şərait yaradılması çox vacib və təqdirəlayiq xüsusiyyətlərdir.

**DÜNYA: - Vaqif müəllim, məktəb haqqında fikirləriniz?**

**Akademik Vaqif Abbasov: -** Bu məktəbin XƏZƏR Universitetinin nəzdində bir kompleks şəklində qurulması – bağça - məktəb – universitet sistemi dünyada qəbul olunan ən gözəl sistemlərdəndir. DÜNYA məktəbi respublikada reytinqi yüksək olan bir universitetin nəzdindədir və orada müəllim kollektivi də yüksək səviyyədədir. Məktəbin maddi-texniki bazasının bütün istiqamətlərdə zənginliyi tədrisin səviyyəsinin mükəmməl təşkilinə şərait yaradır.

Ən vacib məsələlərdən biri də ondan ibarətdir ki, burada tədrisə elmi yanaşma var. Yəni, bir təsadüf yoxdur. “ Nəticə ola bilər, ola bilməz” anlayışı keçmir. Əvvəlcədən düşünülmüş, elmi əsaslandırılmış proqram əsasında tədris qurulduğu üçün nəticələr daha yüksək olur. Xoşuma gələn bir cəhət də odur ki, məktəbinizdə məktəb-valideyn münasibətlərinə kifayət qədər yer ayrılıb.

Məktəbdə həmçinin şagirdlərin istedadlarının üzə çıxarılması üçün axtarışların aparılması, onların inkişafına şərait yaradılması çox vacib və təqdirəlayiq xüsusiyyətlərdir.

# MƏKTƏB HAQQINDA ALİM SÖZÜ



**DÜNYA: - Vaqif müəllim, respublikada ziyalı, alim və məktəb münasibətləri sizi qane edirmi?**

**Akademik Vaqif Abbasov: -** Umumiyyətlə, hər bir ziyalı, xüsusən də alimlər məktəblərlə mütləq təmasda olmalı, himayədarlıq etməlidirlər. Hökm deyil ki, maddi olsun, mənavi-elmi himayədarlıq edəsən! Tez-tez görüşlər keçirilməlidir, şagirdlər ölkənin alimlərini tanımalıdırlar.

Neft- Kimya İnstitutunun direktoru olaraq çox arzu edirəm ki, məktəbin reaktivlərlə, kimyəvi maddələrlə təchiz edilməsinə, bəzi eksperimentlərin aparılması üçün kiçik miqyaslı cihazların qurulmasına kömək edək. Şagirdlərin bizim instituta ekskursiyasını təşkil edək. İnstitutun nəzdində həm Elmlər Akademiyasına, həm də Mədəniyyət və Turizm Nazirliyinə tabe olan muzey var.

Muzeydə elektron vəsaitlər, canlı səs, görüntülər, tarixi sənədlər mövcuddur.

Bizim alimlərimizin məktəblər, qəbul imtahanlarına hazırlaşanlar üçün hazırlıq kitabları var.

Planlaşdırırıq ki, Gənc Alimlər Şurasının da məktəblə "İstedadlılar Qrupu" yaratmalarını və elmi iş qurmalarını təşkil edək, alimlərimizin hazırladıqları əlavə dərs vəsaitlərini məktəb kitabxanasına hədiyyə verək.

> Ən vacib məsələlərdən biri də ondan ibarətdir ki, burada tədrisə elmi yanaşma var. Yəni bir təsadüf yoxdur. **" Nəticə ola bilər, ola bilməz" anlayışı keçmir.**

Hətta DÜNYA məktəbi üçün məktəblə birgə, xüsusi proqram əsasında spesifik əlavə dərs vəsaiti yaratmaq fikrindəyik.

Sizinlə bərabər jurnallarınızda alimlərimizin həyatı, fəaliyyəti, qazandıqları uğurları haqqında materiallar dərc edək ki, şagirdlər məlumatlansınlar.






Dunya School IB students arranged annual IB Forum on 16 May , 2015 . It was done as part of CAS project which is one of the three core IB requirements. Students and teachers from British School in Baku, Idrak Lyceum and Baku Oxford School were among the participants.

The founder of Khazar University, co-founder of Dunya School, prof. Hamlet Isakhanli gave a speech in the opening ceremony. He spoke about the importance of the IB education and advised to apply the elements of the system to national curriculum.

After the refreshment, the teachers introduced their presentations and the students and guests had fruitful discussions at the end of the teachers' sessions.

The students' delivered their TOK presentations after the lunch and shared their knowledge and experience with their peers. Suleiman Abdullayev, an IB student from La Rosey IB School in Switzerland displayed his appreciation on the IB Forum. Dunya school IB students liked his presentation on gender issues and there was productive discussions after that.

At the end of the IB Forum, the certificates were awarded.





# 3RD | ANNUAL CONFERENCE







# Dunya School students are in Nottingham, England

Every year Dunya School students attend summer school in England to improve their English language skills. To be trained by native speakers and to live in an English speaking environment give the students possibility to develop their fluency in English. Besides , it develops international mindedness among students as they meet their peers with various cultural backgrounds. The students are pleased with the rich program arranged by Nottingham Language School. The students will visit the most interesting places of London, Lincoln, Cambridge and Nottingham.





# Химическая лаборатория

Был проведен активный урок на тему разложение веществ.

Некоторые вещества разлагаются очень медленно, большинство солей разлагается под действием нагревания.

Но разложение веществ можно усилить под действием катализаторов.

На активном уроке учащиеся демонстрировали разложение перекиси водорода – $H_2O_2$ под действием катализаторов: $KMnO_4$ ( перманганата калия), $K_2CrO_4$ (хромата калия), KY (иодида калия) и $CuSO_4$( сульфата меди)

$$\underset{\text{перекись водорода}}{2H_2O_2} \xrightarrow{\text{катализатор}} \underset{\text{вода}}{2H_2O} + \underset{\text{кислород}}{O_2\uparrow}$$

Далее учащиеся демонстрировали разложение $(NH_4)_2Cr_2O_7$ (бихромата аммония) при нагревании, в присутствии магниевых стружек, в присутствии перманганата калия – $KMnO_4$






# XIX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI» SƏRGİSİ




IX sinif şagirdləri kimya müəllimi Azər Əliyevlə ekskursiya zamanı




Kimya fənni ayı ilə əlaqədar IX siniflərdə Kimyadan aktiv dərs keçirildi. Məqsəd şagirdlərin sərbəst təcrübə aparmaq qabiliyyətlərini inkişaf etdirmək, onları gələcək təcrübələrə hazırlamaqdır.




# MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Məktəbdə tədris prosesi qarşısında duran məqsədlərdən ən mühümü təhsildə keyfiyyətə nail olmaqdır.

Təhsil müəssisəsinin fəaliyyətinin idarə olunmasında ən mürəkkəb məsələlərdən biri məhz təhsil keyfiyyətinin qiymətləndirilməsidir. Bu prosesin mürəkkəbliyi onun dinamik olmasındadır.

Məktəbli tərəfindən mənimsənilmiş təhsil o zaman keyfiyyətli qəbul edilir ki, onun nəticələri müəyyən edilmiş məqsədə və şagirdin proqnozlaşdırılmış inkişaf səviyyəsinə uyğun olsun.

Məktəb elmi əsaslarla idarə olunmursa, təhsilin keyfiyyəti vaxtı-vaxtında təhlil edilmirsə, monitorinqlər keçirilmirsə, müəssisədə keyfiyyətdən danışmaq yerinə düşməz.

Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Dünya məktəbində təşkilati- tədqiqat xarakteri daşıyan bu işi daha mükəmməl təşkil etmək və həyata keçirmək üçün Monitorinq və Qiymətləndirmə şöbəsi yaradılmışdır.

Bu şöbə öz işini dünya qiymətləndirmə standartlarına uyğun qurmağa çalışır. Təhsil keyfiyyətinin hər mərhələsi üçün obyektiv qiymətləndirmə qaydaları və modelləri müəyyən edilmişdir. Tədris prosesində qiymətləndirmənin bütün növlərinin (diaqnostik, formativ, summativ) düzgün tətbiq edilməsinə xüsusi nəzarət mexanizmi həyata keçirilir.

Monitorinq və Qiymətləndirmə şöbəsi məktəbin fəaliyyətinin qiymətləndirilməsinə, fənlərin tədrisi vəziyyətinə, şagirdlərin inkişafı üzrə aparılan işlərin təhlilinə, istedadlı şagirdlərlə iş məsələlərinə xüsusi diqqət yetirir.

*Monitorinq və Qiymətləndirmə şöbəsi imkan yaradır ki, müsbət cəhətlər, eləcə də nöqsanlar üzə çıxarılsın, inkişafı təmin etmək üçün tədbirlər görülsün.*

Dərs ilinin əvvəlində siniflər üzrə diaqnostik qiymətləndirilmə aparılır,yay tətilindən qayıtmış şagirdlərin bilik səviyyəsi bir daha yoxlanılır. Bu, dərs ilinin əvvəlində bilikdə geriliklərin, boşluqların aradan qaldırılması, yeni dərs ilində təhsilin keyfiyyətli qurulması üçün zəmin yaradır.

Məktəbdə biliklərin qiymətləndirilməsi gündəlik deyil, həftəlik (summativ) aparılır, bununla da şagirdlərdə təlimə şüurlu münasibət yaradılır və onlara qiymət üçün deyil, bilik üçün oxumaq psixologiyası aşılanır.

Həftəlik olan summativ qiymətləndirmə həftə ərzində şagirdin formativ qiymətləri əsasında təyin edilir. Qiymətləndirmənin həftəlik olmasında məqsəd şagird biliklərinin summativ qiymətləndirilməsində uzun fasilənin qarşısını almaqdır.

İmtahana nəzarət qeyri-ixtisas fənn müəllimləri tərəfindən aparılır. Valideynlərdən nümayəndələr də, bir qayda olaraq, imtahan prosesinə nəzarətdə iştirak edirlər.

Monitorinq və Qiymətləndirmə şöbəsi şagird biliklərinin qiymətləndirilməsinin elmi əsaslar üzərində qurulmasını təmin etməklə yanaşı, məktəb fəaliyyətində özünü qiymətləndirməni ən mühüm şərtlərdən biri hesab edir.





# Diqqət! İmtahan!



Bu isə hər zaman təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Məktəbə qəbul olunmaq istəyən yeni şagirdlərin, iş üçün müraciət edən müəllimlərin bilik səviyyəsinin yoxlanılması da bu şöbə tərəfindən aparılır. Eyni zamanda, Monitorinq və Qiymətləndirmə şöbəsi qiymətləndirmə mexanizminin, qiymətləndirmə üsullarının təkmilləşdirilməsində, fənlər üzrə testlərin yüksək səviyyədə hazırlanmasında aparıcı rol oynayır.

# MƏKTƏB VƏ VALİDEYN

*Gərgin və məsuliyyətli dərs ilinin sonu yaxınlaşdı. Məktəb dəhlizlərinin divarlarından üzərində "Sakit! İmtahanlar gedir!" sözləri yazılmış vərəqlər hər kəsin diqqətini cəlb etməyə başladı.*

*İmtahanlar məktəb, şagird həyatının ən həyəcanlı saatları, anlarıdır. Burada hər kəsin bacarığı, hünəri, biliyi, zəkası üzə çıxır.*

*İmtahanlar həm müəllimlər, həm də valideyn və şagirdlər üçün məsuliyyətdir.*

Napoleondan soruşurlar ki, ən çox nədən qorxursan? Böyük sərkərdə ***"imtahandan"*** – deyə cavab verir.



## Səidə Məmmədova
*Valideyn*

İmtahanlar çox yaxşı keçdi. Nəticələr uğurlu oldu. Qızım bütün imtahanlardan "əla" aldı. Bircə Coğrafiyadan "dörd" aldı. Uşaq oxudu və nəticədə də yaxçı qiymətlər aldı. İmtahanlar obyektiv idi.

Lakin müəyyən iradlarım vardı ki, onları müdiriyyətə bildirdim. Uşaqların öz aralarında, münasibətlərində problemlər yaranmışdı, onlar da həll edildi.

Təhsildən heç bir şikayətim yoxdur.



## Aygün Bağırova
*Valideyn*

Hər zaman olduğu kimi, bu il də mən imtahanların keçirilməsindən də, oğlumun aldığı qiymətlərdən də çox razı qaldım. Heç bir narazılığım yoxdur, necə yalan deyim?!

Müəllimlərdən də, təhsilin səviyyəsindən də razıyam.

Sadəcə olaraq tövsiyə edərdim ki, məktəbdə bayramlar, tədbirlər çox keçirilsin. Uşaqlar üçün gələcəyə maraqlı təəssüratlar, xatirələr qalsın.



## Elşad Hüseynov
*valideyn*

- Təhsildən, müəllim kollektivindən, rəhbərlikdən razıyam. Çox məsuliyyətlə yanaşır burada hər kəs öz işinə. Iradı yalnız övladlarıma tuta bilərəm ki, belə məktəbdə yaradılmış yüksək səviyyəli şəraitdən maksimum istifadə edə bilməsinlər.

Qiymətləndirmə real və obyektivdir. Şikayətim yoxdur.





**Tərana Kərimova**
*valideyn*

- Xüsusi olaraq oğlumdan danışa bilərəm. Toğrul altı imtahan verib. İmtahanlar çox yüksək səviyyədə keçib. Köçürmək, haradansa istifadə etmək kimi neqativ hallar olmayıb.

Burada təhsil də, imtahanlar da olduqca yüksək səviyyədə təşkil olunur.. Heç bir şikayətim yoxdur. Mənim uşağım burada yaxşı oxuyan şagirdlərdəndir.

Şagirdlərin arasında düzgün, obyektiv, qaydasında imtahanlar keçirilir.

Mənim uşaqlarım IB-də oxuyur, lakin onlara Coğrafiya da, Tarix də, Biologiya da tədris edilir.

Məktəbdən çox razıyam, məktəb haqqında bildiyim üçün övladlarımı bura etibar etmişəm. Onlar yüksək nəticələr əldə ediblər.

Burada müəllimlər varqüvvələri ilə dərs keçir, öyrətməyə çalışırlar. Toğrulun imtahanları məni çox narahat edirdi. Sonra gördüm ki, narahatçılığa heç bir əsas yoxdur.

Məktəbin iki nümunəvi uşağının valideyniyəm. Mənim şikayətim yoxdursa, düşünmürəm ki, başqa bir valideynin şikayəti olsun!!!

> *“Məktəbdən çox razıyam, məktəb haqqında bildiyim üçün övladlarımı bura etibar etmişəm. Onlar yüksək nəticələr əldə ediblər.”*



**Aydın Əbilov**
*valideyn*

- Mən burada təhsil alan Məhəmməd Əbilovun atasıyam. Məktəbin də, övladımın da ümumi vəziyyəti məni qane edir. İmtahanların nəticələri obyektiv idi. Əslində mən uşaqları bir qədər sixışdirmağın tərəfdarıyam. Məktəbdə çox sevdiyim cəhət obyektivliyin olmasıdır. Təhsilin səviyyəsi çox yüksəkdir. Şagirdin zəif oxumasına görə hər zaman müəllimə irad tutulur. Bu, müsbət haldır. Mənim bir qızım da başqa məktəbdə oxuyur – bura ilə eyni səviyyədə məktəbdə. Fərqi görürəm – bura daha yüksəkdir.

**Layihəmizin yeni-yeni rubrikalarını səhifələrimizdə izləyin!..**

**28 May-Respublika Günü** - 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür.Məmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi əbədi yer tutub.

O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı əhəmiyyətli addımlarla qısa müddətdə xalqımızın tarixində silinməz iz buraxdı, milli dövlətçilik ənənələrinin bərpası işində böyük rol oynadı. XX əsrin əvvəlində Azərbaycan dövlətinin xarici siyasət prinsipləri formalaşdı və bu prinsiplər dostluq və əməkdaşlığa söyləndi. Bunlar Azərbaycan milli şurasının qəbul etdiyi İstiqlaliyyət Bəyannaməsində də əksini tapdı. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi görmədiyini və bütün vətəndaşların siyasi hüquqlarını təmin etdiyini bütün dünyaya bəyan etdi. Ən əsası isə Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirdi və onu gələcəyə miras qoydu.



Ukrayna nümayəndəliyinin binası və Mirzəbəyov qardaşlarının malikanəsində yerləşən Ukrayna Milli Şurası. İstiqlaliyyət küçəsi, 8

## "My life is interesting only if it related to psychoanalysis"



*Was an Austrian neurologist and the founder of psychoanalysis, who created an entirely new approach to the understanding of the human personality. He is regarded as one of the most influential - and controversial - minds of the 20th century.*

Sigismund (later changed to Sigmund) Freud was born on 6 May 1856 in Freiberg, Moravia (now Pribor in the Czech Republic). His father was a merchant. The family moved to Leipzig and then settled in Vienna, where Freud was educated.

In 1873, Freud began to study medicine at the University of Vienna.

"My life is interesting only if it is related to psychoanalysis", Freud said, thus giving us to understand that the events of his biography are not interesting in a biographer's view, but just his activity on the realm of psychoanalysis. But a different reading of this assertion suggests us something else: the fact that applying Freud's method to the study of the biographical events could bring forward another biography, which less cares about the biographical "truth", but particularly cares about the meaning and significance of the biographical events in the light of Freud's discoveries, among which we should first of all mention Oedipus complex. With Octave Mannoni's words: "The confessions Freud made about his youth are like a derived product of his discovery." (O. Mannoni, "Freud", Du Seuil, 1968)



Sigmund Freud inherited from his father the sense of humor, liberalism and free thought. From his mother he would have taken "the sentimentalism", an ambiguous word in German, which would mean that Freud was capable of intense emotional feelings.



**SIGMUND FREUD**

Was an Austrian neurologist and the founder of psychoanalysis, who created an entirely new approach to the understanding of the human personality.

**06.05.1856 – 23.09.1939**





## АЛЕКСАНДР СЕРГЕЕВИЧ

# ПУШКИН

Величайший русский поэт, прозаик, драматург, создатель современного русского литературного языка, гордость национальной литературы

**06.06.1799 - 29.01.1837**

Родился 6 июня 1799 г. в Москве. Пушкин был продолжателем дворянского нетитулованного рода Пушкиных; его отец Сергей Львович увлекался поэзией. Мать, Надежда Осиповна, была внучкой А.П. Ганнибала - африканца, воспитанника императора Петра I.

На протяжении 1805-1810 гг. Александр Пушкин проводил у Марии Алексеевны Ганнибал, бабушки по линии матери. Именно эта женщина стала первым человеком, благодаря которому у Пушкина появилась любовь к родному языку, ведь родители общались с детьми на французском.

Еще одним человеком, с которым мальчик имел возможность говорить по-русски и который оказал огромное влияние на формирование его личности, на поэтичность восприятия окружающего мира, была няня Арина Родионовна .

В 1811 году Александр Сергеевич начинает учится в Царскосельском лицее. В стенах этого учебного заведения впервые проявилось его поэтическое дарование, которое привлекло к себе внимание литературного сообщества и было оценено высоко.

После окончания Лицея Александр в 1817 году переехал в Петербург и был зачислен на службу в Коллегию иностранных дел. Он вращался в светском обществе, в литературном окружении, посещал балы, театры. В 1820 году закончил поэму «Руслан и Людмила» – первое крупное произведение. В мае 1820 г. Пушкин оказался на Кавказе. Он называл этот край «колыбелью Онегина», поскольку именно здесь возник замысел прославленного романа. Задумал в этих краях он и «Бахчисарайский фонтан».

В декабре 1828 г. произошло событие, которое кардинально изменило жизнь поэта, - знакомство с будущей женой Натальей Гончаровой.

Осенью 1830 г. Пушкину пришлось приехать в Болдино. И эта пора вошла в биографию поэта и историю всей русской литературы как знаменитая «Болдинская осень»,- время расцвета его творчества, подарившее миру большое количество произведений, среди которых «Повести Белкина», «Маленькие трагедии», «Сказка о попе и работнике его Балде», последние главы «Евгения Онегина». В 1831 г. Пушкин поставил окончательную точку в романе «Евгений Онегин», над которым работал восемь лет.

Осенью 1836 г. Александр Сергеевич находился в крайне угнетенном состоянии. Причин для тревог было много: растущие долги, издательские хлопоты, невозможность прийти к компромиссу с родственниками по поводу оставшегося после кончины матери имения. Чашу терпения переполнило выходящее за рамки приличий ухаживание за его супругой кавалергарда Дантеса. 3 ноября знакомые Пушкина получили никем не подписанный пасквиль, содержащий уничижительные намеки в адрес Гончаровой, и поэт был твердо убежден, что его автором являлся не кто иной, как Дантес и его приемный отец Геккерн. На следующий же день вечером Пушкин бросил вызов, но тогда дуэль усилиями близких людей поэта была предотвращена.

Однако 27 января 1837 г. поединок все-таки состоялся. Дантес смертельно ранил Пушкина. Пуля осталась в животе, что при уровне развития медицины в те времена не оставляло шансов на жизнь. Последние два дня жизни Пушкин, зная о близкой кончине, спешно приводил в порядок дела, передавал записки императору и 29 января 1837 г. скончался. Похоронили светило русской поэзии неподалеку от имения Михайловское, на территории Святогорского монастыря.











# Our alphabet holiday

Our alphabet holiday show was a great experience because not only did our children show what and how they learned but we practices teamwork and collaboration. We did a play based on a popular American children's book called "Are you my Mother?" We sang a popular song called "Chica Chica Boom, Boom" from America that children learn all across the 50 states. Our classrooms had so much fun and all the children feel rewarded. Alphabet holiday shows are truly a great way to show the children's abilities.




Ana Dili
Biri vardı, biri yoxdu,
kitabını qoruyan cəngavər vardı...
Əli Əlizadə
I sinif şagirdi


Nağıllar
Uşaqlar üçün həyat
nağıllardan başlayır...
aləmində




*Əlifba bütün elmlərin açarıdır. Biliklərin bünövrəsi də məhz Əlifbadan başlanır. Əlifbanı öyrənən birincilər Əlifba ilə* **NAĞILLAR ALƏMİNƏ** *səyahət etdilər, bu dəfə sirli-sehirli nağıl dünyasının qəhrəmanları onların özləri idi...*





# «Мы маленькие лучики, мы солнышка детишки»

Наши первоклассники отметили Праздник Азбуки. Ребята долго и ответственно готовились к этому дню, предоставив зрительскому вниманию концертную программу, которая прошла под слоганом «Мы маленькие лучики, мы солнышка детишки».

Декорации, номера, костюмы и настроение – всё в этот день было солнечным и по-настоящему радостным. Ученики пели, танцевали, читали стихи, участвовали в театральных постановках – одним словом, демонстрировали всё то, чему они научились в свой первый учебный год.

Завершилось празднование торжественным вручением учащимся значков, грамот и виньеток. Эти памятные награды спустя многие годы смогут напомнить им об их первой школьной поре.










АЗБУКА




*Son zəng, biz səninləyik*
*Bir həyat yarışında.*
*Səni eşidəcəyik*
*Zirvələrin başında...*



*Bir daha çağırmayacaq*
*Dərslərə bu zəng bizi.*
*Hər zaman öyrədəcək*
*Həsrətə qəlbimizi.*

*Ah, necə kövrəlmişik*
*Bu ayrılıq çağında.*
*Yaşa dolduq on bir il*
*Məktəbin qucağında.*

*Son zəng həyata çalan*
*Dərslərə vida deyir.*
*Son zəng bizi səsləyir,*
*Bizə əlvida deyir.*





Vətəni Gəncə olan dahi Azərbaycan şairi Nizami Gəncəvinin şöhrəti səkkiz əsrdən çoxdur ki, bütün dünyanı dolanır. Şair gələcək nəsillərə müraciətlə söyləmişdir:

***Özün tək diri bil məni cahanda,***<br>
***Mən də canlanaram, sən canlananda.***

Şair insan ləyaqətini yüksək qiymətləndirmiş və göstərmişdir ki, insan boş və mənasız işlərdən qaçmalı, elmə və biliyə yiyələnməlidir:

***Qüvvət elmdədir, başqa cür heç kəs,***<br>
***Heç kimə üstünlük eyləyə bilməz.***

Nizami Gəncəvi lirik şeirlərin, “XƏMSƏ” (“BEŞLİK”) adı ilə məşhur olan “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”,“Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndərnamə” poemalarının müəllifidir.

Nizaminin əsərlərində dövrünün ən humanist idealları əksini tapmışdır. Onun poemalarından götürülmüş “Nuşirəvan və bayquşların söhbəti”, “Soltan Səncər və qarı”, “Kərpic kəsən kişinin dastanı”, “Ağıllı coban”, “Şah və xidmətçi”, “Xeyir və Şər”, “Fitnə”, “Simnar”, “Yaralı bir uşağın dastanı”, “Süleyman və qarışqa”, “İsgəndər və coban” və s. mənzum hekayələr dillər əzbəridir.

Nizami Gəncəvi insanları ədalət, düzlük, mərdlik, xeyirxahlıq, təvazökarlıq və dostluğa çağırmış, dövrünün zalım hökmdarlarına tarixdən gətirdiyi misallarla ibrət dərsi verməyə çalışmış, “şəhərləri xaraba”, “kəndli xirmənlərini dənsiz” qoyan, qoca qarıların ağ birçəyinə rəhm etməyən zülmkar hakimləri tənqid etmişdir:

***Zülmkarlıq dağıdar, bərbad eylər ölkəni,***<br>
***Ədalət səadətlə abad eylər ölkəni.***

***Can yandırsan orduna, məmləkətə, yurduna,***<br>
***Arxalana bilərsən öz xalqına, orduna.***

***Məmləkətin dayağı ədalətdir hər zaman,***<br>
***Ədalətin nəsibi səadətdir hər zaman.***

Cəsarəti, hünəri, mərdliyi dönə-dönə tərənnüm edən şair “mərd olmaq yaxşıdır dünyada hər an, mərdlik ilə çatar arzuya insan”- deyir.

Böyük sənətkarın əsərlərində dostluğun tərənnümü mühüm yer tutur. O, göstərir ki, dostluqda vəfa, sədaqət və sirr saxlamaq əsas şərtdir.

Şair ikiüzlülük, yaltaqlıq, paxıllıq,xəyanət və s. pis sifətlərin səbəbini hərislikdə,acgözlükdə,xudpəsəndlikdə,şöhrətpərstlikdə görür və bunları tənqid edir. Nizamiyə görə, insan həyatının əsl mənası namuslu əməkdə, halal zəhmətdədir.

***Həyatın cövhəri yalnız əməkdir.***<br>
***Əməksiz bir insan nəyə gərəkdir?***

Nizami Gəncəvinin bütün dövrlər üçün müasir olan ölməz poeziyası bu gün də bizimlə yaşayır, bəşəriyyətin işıqlı gələcəyinə doğru addımlayır.

***El gözündə Nizami ucalıbdır düzlükdən,***<br>
***İlhamına, qəlbinə güc alıbdır düzlükdən.***

***Unut dünya evini sən burada, Nizami!***<br>
***Məslək eşqi yetirər hər murada, Nizami!***



**NİZAMİ GƏNCƏVİ**
**1141 – 1209**

Gəncədə anadan olmuş Azərbaycan şairi, dahi mütəfəkkir, Azərbaycan ədəbiyyatının - poeziyasının görkəmli nümayəndəsi, Şərqin dünya şöhrətli klassiki





*Unudulmaz, kövrək, şaqraq anlarla dolu olan  MƏZUN GECƏSİ...*

*UŞAQLIĞIN SON GECƏSİ...*

*Yetkinliyə doğru yol alan həyatın astanası...*

*Neçə-neçə ömürlərdə xatirələr yazan müəllimlər də həyəcanlı idilər, müəllim ömrünü mənalandıran  şagirdlər də kövrəlmişdi...  Şagirdlər minnətdarlıqlarını bildirirdilər... Müəllimin isə həyata vəsiqə alan şagirdinə arzuları yaziya sığmaz...  Həyatın keşməkeşli yollarında Tanrı sizə yar olsun, əziz məzunlar!!!*









*It is a wonderful day for the graduates of Khazar University Dunya School.*

*Today they stand on the brink of a new chapter in their lives.*

*They take a moment to reflect on everything that*

*they have achieved . It is a day when*

*they get opportunity to acknowledge their accomplishments.*

*They are happy and sad as well .They say farewell to their school*

*and express their appreciation for their teachers and parents.*



# QUBA SOYQIRIMI MEMORİAL KOMPLEKSİ





# SUMMER SCHOOL IN DUNYA







# COMMUNICATIVE LESSONS IN ENGLISH



Dunya School gave its students the chance to work with native English speaking teachers flown direct from the UK on 1-11 June. This helped the parents to avoid the stress of organizing a study tour in England. 1 week course offered 30 hours and 2 week course offered 60 hours – 6 hours a day for 5 and 10 days in a relaxed environment.

The flexible syllabus of the summer school allowed the learners to produce things that really interested them. Students broke down barriers and created s positive atmosphere. They learned how to make themselves understood in an English-speaking world.









## Students spoke in English – every lesson, every day, for a whole week!



During the final session of the day students prepared an end-of-course show in English. They presented posters, games, songs and sketches. Parents came and saw themselves what a difference the week had made. End of course certificate was given to each participant.






DÜNYANIN HƏR YERİNDƏ
XOŞBƏXT OLSUN UŞAQLAR!



*Əlvida gözəl, şıltaq anlara!*
*Əlvida çılğınlıq, dəcəllik dolu günlərə!*
*Əlvida qayğımızı çəkən, sevgisini bir an belə bizdən*
*əsirgəməyən tərbiyəçilərimizə!*
*Dünəndə qaldı!*
*Həm sevinirik, həm də kövrəlirik!*











*Məktəbin I sinfinə qədəm qoyuruq!*
*Sevinirik, o şaqraq, o şən gülüşlər indi də*
*bizimlə məktəbə gedəcək!*
*Bir DÜNYADAN daha yeni DÜNYAYA!*
*Elmin sirlərinə qovuşmağa!*
*DÜNYANIN sehrini anlamağa!*
*Qələm tutmağa, ANA, VƏTƏN sözlərini*
*yazmağa, VƏTƏNİ SEVMƏYƏ –*
*GÖZƏLLİKLƏRƏ!!!*






Aziza Allahverdiyeva

Preschool Graduate



Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (012) 563 59 40/47/48
Mob.: (070) 844 08 88
E-mail: info@dunyaschool.az
http://dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (012) 563 59 43; 563 59 45
Mob.: (070) 560 15 18
E-mail: bagca@dunyaschool.az

# DÜNYA MƏKTƏBİ

## VALİDEYNLƏRİN VƏ ŞAGİRDLƏRİN NƏZƏRİNƏ!

XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ 2015-2016-CI TƏDRİS İLİNDƏ I-XI SİNİFLƏRƏ ŞAGİRD QƏBULU ELAN EDİR:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır. Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom Proqramında təlim ingilis dilindədir. Təhsil müddəti 2 ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## MƏKTƏBƏQƏDƏR HAZIRLIQ

2015-2016 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-Əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.